# MƏNSUR ŞEİRLƏRİ

## *Şah əsəri olan "Mücrü" mənsur şeiri*



***O, gəlin köçəndə anası mücrü də qoydu cehizinin üstünə. "Gəlin mücrüsüz olmaz!", - dedi.***

Nənə yadigarı idi bu balaca, naxışları solğun mücrü. İndi də onun qisməti oldu.
O, üzük, qızıl saat və sırğalarını qoyardı mücrüyə. Mücrü paltar dolabında ən yuxarı gözə qalxmışdı. Əzizlənirdi mücrü, sevilirdi mücrü...

Bir gün gəlin ana oldu. Əri hədiyyə ilə evə gəldi. Açıldı mücrü, cavan ana qızıl boyunbağınıqoydu, örtüldü mücrü.

Və beləcə doldu mücrü.

Atanı müharibə apardı. Ehtiyacla əlbəyaxa oldu ana. Gecəsi gündüzə, gündüzü gecəyə qarışdı ananın. Ancaq itirmədi özünü, itirə bilməzdi ana!

Bir dəqiqə də işsiz durmadı, bir dəqiqə də. Lakin çatışmırdı qazancı. Beş uşağa çatışmırdı qazancı ananın!

Açıldı mücrü, örtüldü mücrü. Nişan şeyləri, ər hədiyyələri bazara ayaq açdı... Kədərlə açıldı mücrü, kədərlə örtüldü mücrü... Boşaldı mücrü...

Bir gün ananın ilki sevincək evə gəldi. Diplomla gəldi. İlk diplom idi ki, onların evinə qədəm qoyurdu. Ali məktəb diplomu.

Ana doluxsuna-doluxsuna diplomu dodaqlarına apardı, bağrına basdı, gözlərində yaş görünəndə yadına çoxdan unudulmuş mücrü düşdü...

Ananın əlləri, mehriban əlləri mücrüyə toxunanda mücrü sanki cana gəldi, sevincək açıldı mücrü, diplomu ağuşuna aldı, gülümsədi, sevincək örtüldü mücrü.

Evə ikinci diplom gəldi. Açıldı mücrü, örtüldü mücrü.

Üçüncü... dördüncü... beşinci... Tamam doldu mücrü.

Ana oxşadı mücrünü. Gözünün qabağına çox şeylər gəldi, çox şeylər! Mücrünü öz yerinə qoyanda anaya o, indi ağır, əvvəlkindən qat-qat ağır gəldi. Ana yanılmamışdı. O sərvət hara, bu sərvət hara?!

## *MƏNSUR ŞEİRLƏRİM MƏNİM*

Gözəlliyə, gözəllərə, gizlin deyil, meyliniz var.

Yarpaq düşsə bir ağacdan ürəyiniz ağrıyar, ağrıyar!

Anaların qəlbini duyan da siz.

El-oba dərdinə həyan da siz.

Ana torpaq, insaniyyət, halal çörək, fədakarlıq, əvəzini gözləməyən xeyirxahlıq, insan kimi düşünüb də insan kimi yaşamaq, bütöv olmaq – həmişəlik söhbətiniz, sözünüzdür.

Yanılmalar, aldanmalar, çəkilməz hicran yanğısı, qəlb ağrısı, qəlb ağrısı –

düşüncəniz, qayğınızdır, ağrınızdır, mövzunuzdur, mövzunuzdur.

Sevincə, kədərə ortaqsınız.

Yalandan, riyadan uzaqsınız.

Nə yaxşı ki, varsınız!..

Varımsınız!.. Həyatımsınız!

Belə həyatımdan sonrakı həyatımsınız, mənsur şeirlərim mənim!

**16 oktyabr, 1977**

## *HUMANİZM*

Külək əsdi.

Böyük bir ağacdan kiçik, kiçik bir yarpaq düşdü.

– Ağaca nə oldu?..

– Ağac nə itirdi?..

Yox, yox, siz yarpağın, ayaqlar altında qalan, xəfifcə küləyin təmasından belə üşüyən, özünə yer tapa bilməyən yarpağın halını düşünün. Yarpağın!

**Peredelniko, 6 mart, 1969**

## *DÜNYANIN QƏRİBƏ İŞLƏRİ VAR*

Axardın...

Qoynundan keçdiyin yurdun istəklisiydin, fərəhiydin, yaraşığıydın.

Axardın...

Axar-baxarlıydın, sahillərin səni sevənlərlə, sevib sevilənlərlə, deyib gülüşənlərlə dolu olardı. Əzizlənərdin. Sevincinin sonu görünməzdi.

Axardın...

Mənsub olduğu torpağın, yurdun, ölkənin ortasından axmaq baş ucalığıdır çay üçün, bilirsən! Belə baş ucalığı sənə də qismət olmuşdu əzəldən. Missisipi kimi, Volqa kimi, Nil, Qanq, Amazonka, Fərat, Niger, Menam, Yantzı, İnd, İravadi kimi!

Axardın...

Şadlana-şadlana, şövqlə, yan-yörəni gəzib dolaşanlara zövq aşılaya-aşılaya...

Ancaq sən demə qılınc başının üstündəymiş... Doymazdı şahın gözü, sonsuzdu çarın iştahası, sevincin yoxa çıxdı, özün sərhədə çevrildin.

Axırsan...

Gözlərin yol çəkir, fikirlisən, əsəbisən! Dözürsən, dözümünə özün də təəccüb edirsən...

Dünyanın qəribə işləri var, Arazım!

**12 mart, 1983**